*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*



**Heydər ƏLİYEV**


# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 24 may 2017-ci il № 39 (2156) Qiyməti 25 qəpik


# Bakı Olimpiya Stadionunda IV İslam Həmrəyliyi Oyunlarının təntənəli bağlanış mərasimi olub

## Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak edib



*Azərbaycan daha bir mötəbər beynəlxalq idman tədbirinə - "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunlarına yüksək səviyyədə ev sahibliyi edərək tarix yazdı. On gün ərzində İslam dünyasının idman nəbzi Bakıda döyündü. İslamiadanın yarışları, sözün həqiqi mənasında, əsl idman və həmrəylik bayramına çevrildi, maraqlı və parlaq qələbələrlə yadda qaldı. "Bakı-2017"-də iştirak edən ölkələr arasında Azərbaycan 75 qızıl medalla birinci oldu. İdman arenalarında Azərbaycanın Dövlət himni 75 dəfə səsləndi, dövlət bayrağı 162 dəfə qaldırıldı.*

AZƏRTAC xəbər verir ki, mayın 22-də Bakı Olimpiya Stadionunda idman həvəskarlarına bir çox unudulmaz, sevinc dolu anlar bəxş edən Oyunların təntənəli bağlanış mərasimi keçirildi.

Tamaşaçılar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi, birinci xanım, "Bakı-2017" Təşkilat Komitəsinin sədri Mehriban Əliyevanı, İslam Həmrəyliyi İdman Federasiyasının baş katibi Faisal Abduləziz Al-Nasseri hərarətlə salamladılar.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, "Bakı-2017" Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva çıxış üçün səhnəyə dəvət olunur.

Müstəqil Azərbaycanın növbəti beynəlxalq qələbəsi - IV İslam Həmrəyliyi Oyunlarının başa çatması münasibətilə hamını təbrik edən və təşəkkürünü bildirən Mehriban Əliyeva deyir: “Son 10 gün ərzində İslam aləminin idmançıları idman, dostluq və birliyin möhtəşəm təntənəsi çərçivəsində bir araya gəldilər. Onların mübarizliyi və fədakarlığı, həqiqətən, valehedici oldu. Onların çıxışlarını seyr etmək böyük hisslər yaratdı”.

İdmançıları nailiyyətləri münasibətilə təbrik edən və İslam aləminin tamaşaçılarına yaşatdıqları sevincə görə onlara təşəkkürünü çatdıran Təşkilat Komitəsinin sədri ümidvar olduğunu bildirir ki, atletlər Bakıdan bütün həyatları boyu unutmayacaqları ən xoş xatirələrlə ayrılacaqlar.

Azərbaycan komandasının ümumilikdə 162, o cümlədən 75 qızıl medal qazanaraq, medallar cədvəlində birinci yer tutaraq, xalqımızı bir daha fərəhləndirdiyini vurğulayan Mehriban Əliyeva idmançılarımıza müraciətlə deyir ki, onların fədakarlığı və ustalığı həmvətənlərimizi ilhamlandırır və gələcək nəslə ən parlaq nümunə kimi xidmət edəcək.

"Lakin son 10 gün ərzində burada, Bakıda bizim üçün və hamı üçün əsl qələbə bu Oyunlarda gördüyümüz İslam aləminin həmrəyliyi oldu. Olduqca fərəhləndiricidir ki, Azərbaycan xalqlar arasında dostluq ruhuna dəstək verdi. Biz hamımız gələcəkdə bu ülvi missiyanın davam etdirilməsi üçün yorulmadan çalışmalıyıq", - deyə Birinci vitse-prezident bildirir.

Oyunların uğurlu olmasında könüllülərin böyük rolunu qeyd edən Mehriban Əliyeva onları İslamiadanın geniş qəlbi adlandırır və gördükləri işlərə görə hər birinə minnətdarlığını ifadə edir.

"Mən məmnuniyyətlə elan edirəm ki, növbəti İslam Həmrəyliyi Oyunları 2021-ci ildə İstanbulda keçiriləcək. Biz türk qardaş və bacılarımıza böyük müvəffəqiyyətlər arzulayırıq", - deyən Təşkilat Komitəsinin sədri IV Bakı İslam Həmrəyliyi Oyunlarını bağlı elan edir.

Mikrofon önünə İslam Həmrəyliyi İdman Federasiyasının baş katibi Faisal Abdüləziz Al Nasser keçir. O vurğulayır ki, bu əlamətdar İslam Həmrəyliyi Oyunları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti və "Bakı-2017"-nin Təşkilat Komitəsinin sədri xanım Mehriban Əliyevanın və onun Azərbaycan İslam Həmrəyliyi Oyunları Təşkilat Komitəsində çalışan heyətinin fəaliyyəti sayəsində qonaqpərvər ev sahibinin səyləri ilə mümkün oldu.

Faisal Abdüləziz Al Nasser İslam Həmrəyliyi İdman Federasiyası adından idmançılara Oyunlarda iştirak etdiklərinə, könüllülərə "Bakı-2017"-yə verdikləri töhfəyə və Azərbaycan xalqına göstərdiyi fədakarlığa, çox böyük qonaqpərvərliyə görə təşəkkürünü bildirir.

İslam Həmrəyliyi İdman Federasiyasının baş katibi çıxışını bu sözlərlə tamamlayır: "Dörd ildən sonra "İstanbul - 2021" Oyunlarını qeyd etmək üçün bir daha bizə qoşulmağınızı səmimiyyətlə arzulayıram. Sağ ol, Bakı! Sağ ol, Azərbaycan!"

# Azərbaycan Respublikası Müdafiə nazirinin Gürcüstana rəsmi səfəri



*Gürcüstanda səfərdə olan Azərbaycanın Müdafiə naziri general-polkovnik Zakir Həsənov mayın 21-də Tbilisidəki Heydər Əliyev parkında Ulu Öndərin abidəsini ziyarət edib, abidə önünə əklil qoyub.*



Sonra nazir Azərbaycanın Gürcüstandakı səfirliyində bu ölkədəki Ağsaqqallar Şurasının rəhbərliyi, eləcə də icma nümayəndələri və torpaqlarımızın azadlığı uğrunda şəhid olan qəhrəmanların valideynləri və yaxınları ilə görüşüb. Nazir soydaşlarımıza Prezident, Ali Baş Komandan İlham Əliyevin salamlarını çatdırıb, Azərbaycan dövlətinin onlara daim diqqət və qayğı göstərdiyini bildirib.

General-polkovnik Zakir Həsənov diqqətə çatdırıb ki, torpaqlarımızın azadlığı uğrunda şəhid olan qəhrəman Vətən oğulları sırasında Gürcüstanda doğulub boya-başa çatan insanlar da var. Onların bir neçəsi orden və medallarla təltif olunub. Soydaşlarımızdan biri - Bolnisi rayonunun Zol-Güvəc kəndindən olan Elşən Məmmədov Azərbaycan Respublikasının "Şücaətə görə" medalına layiq görülüb.

Nazir medalı şəhidin atası Vaqif Məmmədova təqdim edib. Şəhid atası Azərbaycan dövlətinin, şəxsən Prezident və Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısını daim hiss etdiklərini bildirib, oğlu ilə qürur duyduğunu vurğulayıb. O, çıxışını "Vətən sağ olsun" sözləri ilə bitirib.

General-polkovnik Zakir Həsənov ötən ilin aprel döyüşlərində şəhid olmuş pilot, "Azərbaycan Bayrağı" ordenli, Dmanisi rayonunun Yanıqlı kəndindən olan Təbriz Musazadənin əmisi Vaqif Musazadəyə Müdafiə Nazirliyinin xatirə hədiyyəsini verib.

Görüşdə Azərbaycanın Gürcüstandakı səfiri Dursun Həsənov da iştirak edib.

* * *

Gürcüstanda rəsmi səfərdə olan Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov mayın 22-də bu ölkənin Müdafiə naziri cənab Levan İzoria ilə görüşüb.

Gürcüstan Müdafiə Nazirliyində Azərbaycan nümayəndə heyətinin rəsmi qarşılanma mərasimi olub.

Protokola uyğun olaraq Müdafiə nazirləri fəxri qarovulun önündən keçdikdən və Dövlət himnləri səsləndirildikdən sonra görüş keçirilib.

Görüşdə ölkələrimiz arasında hərbi, hərbi təhsil, hərbi tibb sahələrində əməkdaşlığın perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlər barədə ətraflı fikir mübadiləsi aparılıb.

Regiondakı hərbi-siyasi vəziyyətə toxunan tərəflər bölgədə sabitliyin təmin olunmasının əhəmiyyətini vurğulayaraq bu formatda münasibətlərin ölkələrimizin təhlükəsizliyinə və inkişafına töhfə verəcəyini xüsusi qeyd ediblər.



Görüşdən sonra kütləvi informasiya vasitələrinin nümayəndələri üçün Müdafiə nazirlərinin mətbuat konfransı keçirilib.

Sonra Azərbaycan nümayəndə heyəti Tbilisi şəhərindəki Qəhrəmanlar Meydanında Gürcüstanın ərazi bütövlüyü və müstəqilliyi uğrunda həlak olmuş vətəndaşların xatirəsinə ucaldılmış abidə önünə əklil qoyub, onların xatirəsini yad edib.

* * *

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin nümayəndə heyətinin Gürcüstana rəsmi səfəri çərçivəsində mayın 22-də general-polkovnik Zakir Həsənovla Gürcüstanın Baş naziri cənab Giorgi Kvirikaşvili arasında görüş keçirilib.

Azərbaycan-Gürcüstan münasibətlərinin dostluq, qarşılıqlı etimad üzərində qurulduğunun bildirildiyi görüşdə dövlət başçılarının mütəmadi işgüzar görüşləri və səfərlərinin əlaqələrimizin daha da güclənməsinə təkan verdiyi xüsusi qeyd olunub. Tərəflər qarşılıqlı maraqlara cavab verən bu münasibətlərin regionda sülhün, sabitliyin və təhlükəsizliyin təmin edilməsinə xidmət etdiyini bildiriblər.

Görüşdə, həmçinin, terrorizmə və separatizmə qarşı mübarizə aparan ölkələr olaraq hərbi əməkdaşlığın inkişaf etdirilməsinin və bu məsələlərdə qarşılıqlı dəstəyin vacib olduğu bir daha vurğulanıb.

* * *

Mayın 23-də Batumidə Azərbaycan, Gürcüstan və Türkiyənin Müdafiə nazirlərinin üçtərəfli görüşü başlayıb.

Gürcüstanın Müdafiə naziri Levan İzoria tədbiri açdıqdan sonra Mançester şəhərində törədilmiş terror hadisəsi zamanı həlak olanların ailələrinə başsağlığı verib, Gürcüstanın terroru qətiyyətlə pislədiyini bildirib.

Türkiyənin Milli Müdafiə naziri Fikri Işık tədbirin yüksək səviyyədə təşkilinə görə minnətdarlıq edib, ölkəsinin də terrora qarşı mübarizə apardığını diqqətə çatdırıb.

Azərbaycanın Müdafiə naziri general-polkovnik Zakir Həsənov da Mançester şəhərində baş vermiş terroru qətiyyətlə pisləyib. Bildirib ki, Azərbaycan dövləti terrora qarşı çox sərt mövqe nümayiş etdirir. Terror vasitəsilə dinc insanların qətlə yetirilməsi sülhün və sabitliyin pozulmasına yönəlmiş təhdiddir. Nazir bildirib ki, bütün dövlətlər terrora qarşı birgə mübarizə aparmalıdır.

Üçtərəfli görüşdə Azərbaycan, Gürcüstan və Türkiyə arasında hərbi əməkdaşlığın perspektivləri, regional təhlükəsizlik və bölgədə həyata keçirilən iqtisadi layihələrin birgə mühafizəsi və digər məsələlər müzakirə olunur.

* * *

Mayın 23-də Batumi şəhərində Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov, Gürcüstanın Müdafiə naziri cənab Levan İzoria və Türkiyə Respublikasının Milli Müdafiə naziri cənab Fikri Işık arasında üçtərəfli formatda görüş keçirilib.

Görüşdə bölgədəki hərbi-siyasi vəziyyət, regional təhlükəsizlik məsələləri ətraflı müzakirə edilib və üçtərəfli hərbi əməkdaşlığın perspektivləri barədə geniş fikir mübadiləsi aparılıb.

Tərəflər beynəlxalq terrorizm və aqressiv separatizmin regiondakı sülhə və sabitliyə, ümumi inkişafa mənfi təsir göstərdiyini vurğulayaraq dövlətlərin təhlükəsizliyinə yönəlmiş təhdidlərə qarşı birgə fəaliyyətin vacibliyini xüsusi qeyd ediblər.

Nazirlər hərbi, hərbi təhsil və hərbi tibb sahəsində əməkdaşlığın perspektivləri, birgə hərbi təlimlərin keçirilməsi və bir sıra qarşılıqlı maraq doğuran digər istiqamətləri də nəzərdən keçiriblər.

Görüşün yekunlarına dair birgə protokol imzalandıqdan sonra kütləvi informasiya vasitələri nümayəndələri üçün mətbuat konfransı keçirilib.

* * *

Mayın 23-də Batumi şəhərində Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovla Türkiyə Respublikasının Milli Müdafiə naziri cənab Fikri Işık arasında görüş keçirilib.

Tərəflər Azərbaycan ilə Türkiyənin hərbi əməkdaşlığının dostluq və qardaşlıq münasibətləri üzərində qurulduğunu, bu əlaqələrin daim inkişaf etdiyini və ölkələrimiz üçün faydalı olduğunu qeyd ediblər.

Regional və qlobal səviyyədə sülhə və sabitliyə töhfə vermək məqsədilə fəaliyyətlərin davam etdirilməsi, birgə təlimlərin keçirilməsi, mütəxəssislərdən ibarət işçi görüşlərinin təşkili, eləcə də hərbi texniki, hərbi təhsil sahələrində əməkdaşlığın genişləndirilməsi məsələləri də müzakirə edilib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

Ön xətdən reportaj

# Qarşıda düşmən var...

*Yenə də əsgərlərimizlə görüşə - səngərlərə tələsirik. Məqsədimiz bəllidi: Vətən keşikçiləri ilə görüşmək, onların döyüş hazırlığı, məişət şəraiti, problemləri ilə yaxından maraqlanmaq və arzularını, ürək sözlərini qəzetimizdə dərc etmək. Yol uzunu bir anlıq xatirələrə dalıram. Böyük Vətən müharibəsinin iştirakçısı olan babam Alcəfər kişini, tez-tez döyüş yoldaşları haqqında danışdıqlarını düşünürəm. Həmişə babamın üzündə bir məğrurluq, bir qədər də kədər sezilirdi. İçində həm o günlərin fərəhini, həm də səngər dostlarını itirməyinin kədərini yaşayırdı. Maraqlıdır, hər səngər görüşlərimdə necə dostluğun bünövrəsi yaranır və bir ömür davam edir. Axı səngər dostluğu sınaqlardan keçən dostluqdu.*



Bu düşüncələrlə "N" hərbi hissəsinə çatırıq. Təcrübəli zabit Murad Muradov əsgərlərimizin yüksək döyüş əhval-ruhiyyəsində olduğunu, hər an Ali Baş Komandanın əmrini gözlədiklərini deyir. "Ali Baş Komandan əmr verəcəyi an silaha sarılıb torpaqlarımızı azad edəcəyik. Müasir silah və hərbi texnika ilə təchiz edilmiş, yüksək döyüş hazırlığına malik ordumuz var. İqtisadiyyatımızda əldə olunan nailiyyətlər ordumuzun təchizatını da xeyli yaxşılaşdırıb. Müasir standartlara cavab verən əsgər yataqxanaları, tibb məntəqəsi, camaşırxana-yeməkxanalar hərbi qulluqçularımızın ixtiyarındadı. Ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin və Müdafiə naziri general-polkovnik Zakir Həsənovun Silahlı Qüvvələrə göstərdikləri diqqət və qayğını hər addımda hiss edirik. Bu diqqət və qayğı hər bir döyüşçümüzü düşmən üzərində qələbəyə ruhlandırır".



Vaxt itirmədən qərargahdan səngərlərə yollanırıq. Zabit Murad Muradov danışır:

- Tarix boyu yeri-yurdu bəlli olmayan ermənilər zaman-zaman Azərbaycana qarşı ərazi iddiasında olublar, soyqırımlar törədiblər. Nəticədə sərhədlər səngərlərə çevrilib. Səngərdə cəsur Azərbaycan oğulları dayanıb. Bir gün torpaqlarımızın sinəsinə çəkilən səngərlər tezliklə düşmənə məzar olacaq.

Sıx meşəlikdən açılan yollarla bir qədər hündürlüyə qalxaraq səngərə çatırıq. Kiçik çavuş Ruslan Əsgərovla salamlaşıb post başçısı olduğunu öyrənirik.

Tovuz rayonundan olan Ruslan düşməni məhv etməyə hazır olduqlarını, əsgərlərinə daim qələbə ruhu aşıladığını bildirir. Manqa komandiri olaraq əsgərlərə silahların taktiki-texniki xüsusiyyətlərini öyrədir, nizam-intizamlı olmağı, hərbi qayda-qanunlara riayət etməyi başa salır. Düşmən üzərində qələbənin sorağında olduqlarını deyən gənc komandir, əsgərlərin məişətinə, qida təminatına, bir sözlə, döyüşə hazır olmalarına diqqət etdiklərini bildirir.

- Mütəmadi keçirilən təlimlərdən, bildiklərini öyrətməyə can atan komandirlər və komandirlərindən öyrənməyə səy göstərən əsgərlər olduğu halda döyüş meydanından üzüağ çıxacağıq, - manqa komandiri dedi.

Dərin qazılmış səngərlərdə döyüş növbətçiliyi aparan əsgərlərimizlə həmsöhbət oluruq.

İlk həmsöhbətim Ağdaş rayonundan hərbi xidmətə çağırılan Mirdamət Lətifzadədir. 4 aydır ki, ön xətdə xidmət edən əsgər deyir ki, atıcı vəzifəsindədir. Bu vəzifəyə təlimdə atış çalışmaları zamanı hədəfləri sərrast və dəqiq vurduğuna görə təyin olunub. Gənc əsgər olduğu zaman ilk sıra addımlarını, silahı təhvil aldığı anı unutmayacağını bildirir. "Valideynlərimə Vətənə layiqli əsgər olacağıma söz vermişəm. İlk sıra addımlarımda nizam-intizamlı, bacarıqlı əsgər olaraq yetişməyə başladığımı hiss etdim. Hər gün, hər saat özümə döyüşə atılacağım, torpaqlarımıza qəsd edənləri cəzalandıracağım günü arzuladım. Gördüyünüz kimi silahlıyam, qarşımda düşmən var. Arzumun bir addımlığındayam. Tarixi Azərbaycan torpaqlarını azad edəcəyimiz günün - Ali Baş Komandanın döyüş əmrinin sorağındayam. Hər döyüş növbətçiliyində silahımla baş-başa qalıb düşmənə nifrətlə baxıram. Tarix boyu başımıza açdıqları müsibətləri düşünürəm".

Hər addımında igidlər oylağını xatırladan, keçilməz qala olduğunu hiss etdirən səngərlə irəliləyirik. Növbəti mövqeni qoruyan Beyləqan rayonundan hərbi xidmətə çağırılan əsgər Yalçın Cəfərovdur. 8 aydır hərbi xidmətdə olan əsgər baş atıcı vəzifəsindədir. Yalçın deyir ki, gecələr tez-tez atəş səsləri eşidilir. Amma bu onları qorxutmur. "Biz Vətən keşiyindəyik. Bizə inanan, güvənən, canlarını etibar edən insanlarımız, Azərbaycan xalqı var. Bir zamanlar bu səngərlərdə bizi qoruyanları, indi qorumaq bizim vəzifəmizdir. Çiynimizdəki məsuliyyətin,



qarşımızdakı mənfur düşmənin fərqindəyik. Bu səbəbdən də öz mövqeyimizdə ayıq-sayıq, möhkəm dayanmışıq."

"N" hərbi hissəsində əsgərlərin yaşam tərzi, qidalanması ilə maraqlandıq. Əsgərlərin yatdıqları, dincəldikləri yerlər təmiz, səliqəlidir. Yeməkləri də hər gün qaydasında verilir. Əsgər Tural Əlizadə deyir ki, burada onlara qayğı ilə yanaşırlar. "Yemək məsələlərində heç vaxt problem olmur, hər gün vaxtında yeməklərimiz verilir, yaradılan imkanlardan və şəraitdən razıyıq". Cəbhə bölgəsində xidmət etməkdən ruhlandığını bildirən Turala görə, 11 aylıq hərbi xidmətində ömrünün mənasını tapıb. "Məncə həyatdakı ən böyük sevgi Vətən sevgisidir. Hansı ki, bu sevgi bizə güc-qüvvət verir".

Əsgər Əlizadənin dediklərini düşünürəm. "Hərbi xidmətdə ömrümün mənasını, həyatımın amalını tapmışam". Vətənə bu qədər bağlı olan əsgər düşmən üzərinə qorxmadan, igidliklə gedəcək, torpaqlarımızı bir göz qırpımında azad edəcək.

Bu düşüncələrlə əsgər Bulud Həsənlinin qoruduğu qumbaraatan mövqeyinə çatırıq. Hansı ki, manqa komandiri 14 ayın əsgəri olan bu gənc haqqında tərifli sözlər demişdi. Onun nizam-intizamından, silahların taktiki-texniki xüsusiyyətlərinə bələd olmasından, məsuliyyətindən ağızdolusu danışmışdı. Cəlilabad rayonundan olan əsgər məğrur səslə Azərbaycan Respublikasına xidmət etməkdən fərəh duyduğunu bildirir. "Bütün əsgər yoldaşlarımızla bir məqsədimiz var: torpaqlarımızı azad etmək. Hər gün döyüş növbətçiliyinə çıxarkən dua edirəm. Allahım, bizə o torpaqlara ayaq basmağı, düşmənə etdiklərinin əvəzini verməyi nəsib eylə".

Əsgər Ruslan Mehtili deyir ki, ordu mühiti başqa dünyadır. 8 aydır gecə-gündüz bilmədən xidmətdə olsa da, yorulmadığını, bundan sonrakı həyatını da ordu sıralarında keçirəcəyini bildirir. "Zaman keçdikcə ayrılmaq istəmirsən silah yoldaşlarından. Burada olanda ailənin güvəndə olduğuna əmin olursan. Mən indi rahatam. Çünki nə təhlükə gəlsə, biz onu dəf etməyə hazırıq. Təki Vətən yaşasın".

Son həmsöhbətim isə əsgər Şakir Şakirlidir. O da digər yoldaşları kimi məqsədlərinin torpaqlarımızı azad etmək olduğunu bildirdi. "Əzəli düşmənimiz ermənidir. Onların etdiklərini, törətdikləri soyqırımları unutmamışıq. Qisas gününü gözləyirik, şəhidlərimizin intiqamını alacağımız gün uzaqda deyil. Düşmən bilsin ki, onları yer üzündən siləcək gücə malik ordumuz var. Hər birimiz Azərbaycan əsgəri olmağımızın qürurunu yaşayırıq".

Getmək vaxtıdır... Xudahafizləşib yola düşürük. Sıx ağacların kölgə saldığı meşədən geriyə boylanır, döyüş postuna baxıram. Doğrudan da, qalaya bənzəyir. Bəli, bu qalanı ürəyi Vətən eşqi ilə döyünən oğullar qoruyur.

**Baş leytenant
Ceyhun CƏFƏRLİ,
"Azərbaycan Ordusu",
fotolar
Coşqun CƏFƏROVUNDUR**

AZƏRBAYCAN ORDUSU

# Hərbi Akademiyanın Xarici dil və tərəfdaşlıq mərkəzində buraxılış mərasimi keçirilib

*Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Silahlı Qüvvələrin Hərbi Akademiyasının Xarici dil və tərəfdaşlıq mərkəzində təşkil olunmuş növbəti intensiv ingilis dili kurslarının başa çatması ilə əlaqədar buraxılış mərasimi keçirilib.*



Azərbaycan Respublikasının Dövlət himni səsləndirildikdən sonra ümummilli lider Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda həlak olmuş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Silahlı Qüvvələrin Hərbi Akademiyasının rəisi general-leytenant Heydər Piriyev kursu bitirən dinləyiciləri təbrik edərək onlara gələcək xidmətlərində uğurlar arzulayıb və məzunlara sertifikatlar təqdim edib.

# Ombudsman aparatının nümayəndələri hərbi hissələri ziyarət ediblər

*Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və İnsan hüquqları üzrə müvəkkilinin birgə planına əsasən, Ombudsman aparatının nümayəndələri hərbi hissələri ziyarət ediblər.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Ombudsman aparatının nümayəndələri Fəzail Həsənov və Murad Babayev hərbi qulluqçuların məişət şəraiti ilə tanış olub, onlarla rəftar və hərbi hissələrdə insan hüquqlarının müdafiəsi vəziyyətini öyrənib, şəxsi heyəti maraqlandıran sualları cavablandırıblar.

Aparatın əməkdaşları əsgər yataqxanaları, yeməkxanalar, tibb məntəqələri, məişət və digər inzibati otaqlara baxış keçirərək qidanın və müalicə işinin keyfiyyəti, asudə vaxtın keçirilməsi üçün yaradılan şərait, şəxsi heyətlə vətənpərvərlik və təlim-tərbiyə sahəsində aparılan işi müsbət qiymətləndiriblər.

# Azərbaycan hərbçiləri “Beynəlxalq Ordu Oyunları - 2017” yarışlarının beş müsabiqəsində iştirak edəcək

İyulun 29-dan avqustun 12-dək 5 ölkə (Azərbaycan Respublikası, Belarus Respublikası, Qazaxıstan Respublikası, Çin Xalq Respublikası və Rusiya Federasiyası) ərazisində keçiriləcək "Beynəlxalq Ordu Oyunları - 2017" yarışlarında Azərbaycan Silahlı Qüvvələri nümayəndələrinin də iştirakı planlaşdırılır.

Azərbaycan hərbçilərinin Rusiya və Qazaxıstan ərazilərindəki poliqonlarda keçiriləcək "Tank biatlonu", "Artilleriya atəşi ustası", "Snayper həddi" və "Səhra mətbəxi" növləri üzrə müsabiqələrində iştirakı nəzərdə tutulub.

Bundan əlavə, Azərbaycan, Rusiya və Qazaxıstanın hərbi dənizçilərinin iştirakı ilə Bakı şəhərində "Dəniz kuboku" müsabiqəsi də keçiriləcəkdir.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**



*NATO-nun Əməliyyat İmkanları Konsepsiyası (ƏİK) Proqramı çərçivəsində Ortaq Qüvvələr Birliyinə bəyan edilmiş Azərbaycan Silahlı Qüvvələrinin ƏİK kəşfiyyat bölüyünün 1-ci səviyyəli NATO qiymətləndirmə təlimi keçirilib.*

# Əməliyyat İmkanları Konsepsiyası bölüyünün NATO qiymətləndirmə təlimi keçirilib

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, təlim zamanı bölüyün təchizatı, avadanlığı, rabitə vasitələri ilə təminatı, eləcə də şəxsi heyətin ingilis dilini bilmə səviyyəsi, digər zəruri əməliyyat imkanlarının NATO standartları və tələbləri ilə uyarlılığı, sülhməramlı qüvvələr tərkibində və digər əməliyyatlar zamanı taktiki tapşırıqların icrası məsələləri qiymətləndirilib.

Bölüyün qiymətləndirilməsi NATO-nun Quru Qoşunları Komandanlığının rəhbərliyi ilə Alyansın müxtəlif qərargahlarının və tərəfdaş ölkələrin ƏİK üzrə qiymətləndiricilər qrupu tərəfindən həyata keçirilib.



# Azərbaycanın Xarici İşlər naziri avropalı deputatların suallarını cavablandırıb

Xarici İşlər naziri Elmar Məmmədyarov Avropa Parlamentinin Xarici Əlaqələr Komitəsinin yeni sədri, Avropa Xalq Partiyasının Almaniyadan olan deputatı Devid MakAlisterin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, söhbət zamanı Devid MakAlister Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə keçirdikləri görüşdə faydalı müzakirələrin aparıldığını diqqətə çatdırıb.

Nazir Elmar Məmmədyarov Avropa Parlamenti deputatlarının səfərinin və bu kimi dialoqun Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığa töhfə verəcəyinə ümidvar olduğunu ifadə edib.

Görüşdə Azərbaycan və Avropa İttifaqı arasında münasibətlərin hazırkı səviyyəsi və əməkdaşlıq perspektivləri müzakirə edilib, ölkəmizlə təşkilat arasında strateji tərəfdaşlıq sazişi üzrə rəsmi danışıqlar prosesinin başlanmasına dair geniş fikir mübadiləsi aparılıb.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan Elmar Məmmədyarov Aİ-nin Xarici və Təhlükəsizlik Siyasəti üzrə Qlobal Strategiyasında əks olunduğu kimi həlli uzaldılmış münaqişələrə münasibətdə dövlətlərin beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyü və suverenliyinə hörmət prinsipi əsasında qeyri-seçimli və vahid mövqedən yanaşılmasının vacibliyini diqqətə çatdırıb. Nazir Elmar Məmmədyarov əlavə edib ki, güc tətbiq edərək dövlətlərin beynəlxalq səviyyədə tanınmış sərhədlərinin pozulması cəhdləri qəbuledilməzdir.

Görüşün sonunda nazir Elmar Məmmədyarov nümayəndə heyətinin müxtəlif mövzularda, xüsusən də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan danışıqlara dair sualları cavablandırıb.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

*23 may 2017-ci il.*

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və 60 millimetrlik minaatanlardan da (4 mərmi) istifadə etməklə sutka ərzində atəşkəs rejimini 115 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Barekamavan kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli və Qaymaqlı kəndlərində, Berd rayonunun Ayqepar, Ayqedzor və Çinari kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli, Muncuqlu və Ağbulaq kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Yarımca, Ağdam rayonunun Qaraqaşlı, Yusifcanlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qorqan, Qaraxanbəyli, Horadiz və Aşağı Veysəlli kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

# Viktorinaya yekun vuruldu



Mayın 18-də Həzi Aslanov adına Mərkəzi Zabitlər Evində əsgər, matros və kursantlar arasında ulu öndər Heydər Əliyevin xatirəsinə həsr edilən "Təhsil və bilik hər bir millətin səviyyəsinin göstəricisidir" adlı viktorinanın yekun mərhələsi başa çatdı. Viktorinanın əvvəlki mərhələləri Bakı Qarnizonunda yerləşən "N" hərbi hissəsində, Hərbi Dəniz Qüvvələrində, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində keçirilib. Yarış iştirakçıları öz bilik və bacarıqlarını nümayiş etdiriblər.

Tədbir ümummilli lider Heydər Əliyevin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsindən sonra başladı. Mərkəzi Zabitlər Evinin mədəni-bədii iş bölməsinin müdiri Gülxar Məmmədova çıxış edərək Ulu Öndərin şərəfli ömür yolundan, Azərbycanın ordu quruculuğuna verdiyi töhfələrdən danışdı. O bildirdi ki, 1969-cu ildə respublika rəhbərliyinə gəldiyi ilk gündən dahi şəxsiyyət Heydər Əliyev dövlət siyasətinin digər sahələri kimi hərbi quruculuq məsələlərinə, milli hərbi kadrların yetişdirilməsinə də böyük diqqət yetirib. "1971-ci ildə Ulu Öndərimizin uzaqgörənliyi sayəsində Bakıda yaradılan Cəmşid Naxçıvanski adına indiki Hərbi Lisey milli ordunun zabit kadrları ilə təmin olunmasında mühüm rol oynadı. Bütün həyatını xalqına həsr edən böyük şəxsiyyət həyatının sonuna kimi Azərbaycan Ordusuna, hərbi kadrlara diqqət və qayğısını əsirgəmədi".



Viktorinanın yekun mərhələsi üç komanda - "N" hərbi hissəsinin əsgərləri, Hərbi Dəniz Qüvvələrinin matrosları və Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin kursantları arasında keçirildi. Suallar müxtəlif mövzuları əhatə edərək, şəxsiyyətlər, elm, incəsənət, mədəniyyət, tarix, ədəbiyyatla bağlı tərtib olunmuşdu. Komandanın üzvləri verilən sualları cavablandıraraq üç mərhələdə aparılan yarışmanı böyük həyəcanla başa vurdular. Sualların düzgün cavabları hesablanaraq birinci, ikinci və üçüncü yerlər müəyyənləşdirildi. "N" hərbi hissəsinin əsgərləri qalib komanda elan edildi. İkinci yerdə AAHM-in kursantları, üçüncü yerdə isə HDQ-nin matrosları qərarlaşdılar.

Tədbir yarışma iştirakçılarının mükafatlandırılması ilə başa çatdı.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# "Ermənistanın işğalçılıq siyasəti regional əməkdaşlığa mane olur"

*Təəssüf ki, bu gün Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı 25 illiyini elə bir üzv ölkə ilə qeyd edir ki, həmin ölkə özünün zəhərli ideologiyasından hələ də əl çəkməyib, bu gün də dözümsüzlüyü və zorakılığı təbliğ edir. Bu ideologiya həmin ölkəni regionda monoetnik dövlətə çevirməklə yanaşı, bütün bölgəni bulaşdırır və o ölkənin insanlarını inkişaf imkanlarından məhrum edir.*

Bu fikirləri Milli Məclisin sədri Oqtay Əsədov Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının yaranmasının 25-ci ildönümünə həsr olunan Zirvə toplantısında bildirib.

Oqtay Əsədov deyib ki, Ermənistan Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin 20 faizinin işğalını davam etdirməklə regional təhlükəsizliyi və sabitliyi pozmaqdadır. Bu işğal bütövlükdə regional əməkdaşlığa mane olur. Ermənistan beynəlxalq hüququn aliliyini qəti surətdə inkar edir və Azərbaycanın işğal olunmuş ərazilərindən Ermənistan silahlı qüvvələrinin dərhal və qeyd-şərtsiz çıxarılmasını açıq tələb edən BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinə tabe olmaqdan boyun qaçırır.

Milli Məclisin sədri vurğulayıb ki, güc tətbiqinin tərəqqi və mehriban qonşuluğa gətirib çıxara biləcəyi barədə Ermənistan rəhbərliyinin bəsit düşüncəsi sadəcə xəstə təxəyyülün məhsulundan başqa bir şey deyil. Şübhə yoxdur ki, Azərbaycan beynəlxalq hüquq normalarına tam uyğun olaraq öz ərazi bütövlüyünü bütünlüklə bərpa edəcək.

**AZƏRTAC**

# Azərbaycan Müdafiə Nazirliyi ermənilərin yaydığı videoya münasibət bildirib

Müdafiə Nazirliyi Ermənistan tərəfinin Azərbaycan Silahlı Qüvvələrinin guya öz bölmələrinin mövqelərini minaatanlardan vurmasını əks etdirən videomaterial yaymasına münasibət bildirib.

Müdafiə Nazirliyinin Mətbuat Xidmətindən AZƏRTAC-ın sorğusuna cavab olaraq bildiriblər ki, döyüş meydanında məğlubiyyətə düçar olan Ermənistan tərəfi bunun əvəzini virtual məkanda çıxmağa uğursuz cəhdlər göstərir: "Hazırda cəbhənin müxtəlif istiqamətlərində, o cümlədən Tərtər-Ağdərə istiqamətində yerləşən ön xətt bölmələrimiz hazırlıq planına əsasən, döyüş vəziyyətinə uyğun şəraitdə atış məşqləri keçirir. Videodakı partlayışlar isə ermənilərin iddia etdikləri kimi 60 millimetrlik minaatan mərmiləri yox, təlimdə istifadə edilən əl qumbaralarının partlayışıdır. Hətta mütəxəssis olmayan, silahdan azacıq anlayışı olan şəxs belə bu partlayışların minaatanların mərmilərinə aid olmadığını asanlıqla təyin edə bilər".

*Nümunəvi xidmət*

# "Qələbədə mənim də töhfəm olacaq"



Cəbhə bölgəsi... Səngər... Bu kəlmələr özündə səngərdən qalalı dağları, laçın qayaları, müharibə alovunu, igid oğulları, qəhrəmanlığı ehtiva edir. Bu torpağa tuşlanan hər bir mərminin, güllənin bir insan ömrünə son qoya biləcəyini diktə edir. Ancaq torpaq uğrunda canından keçməyə hazır olan igid Azərbaycan əsgərlərini gördükdə düşmənə aman verilməyəcəyi gün kimi aydın olur. Əmin olursan ki, bu gün səngərdə hər kəs qəhrəmanlıq hissi ilə yaşayır.

Bu yaxınlarda "N" hərbi hissəsində Füzuli rayonunun Əhmədalılar kəndindən olan müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Emin Fərzəlizadə ilə söhbətim oldu. İnanırsan ki, Vətənə şərəflə xidmət edən, aprel döyüşlərinin odundan, alovundan çıxmış bu hərbçimizin timsalında Azərbaycan əsgəri Vətənin azadlığı və bütövlüyü naminə hər şeyə hazırdır.

Emin Fərzəlizadənin əsas amalı torpaqlarımızın azad olunması əməliyyatında yaxından iştirak etməkdir. Bunun üçün də təcrübəsini artırmağa xüsusi önəm verir: "Ordunun döyüş qabiliyyəti əsgərin döyüş hazırlığından asılıdır. Ermənistan tərəfindən işğal edilmiş torpaqlarımızın geri qaytarılması üçün güclü hazırlığa, maddi-texniki bazaya malik olan ordu əsas şərtdir. Bu gün şəxsi heyətimiz elə bir səviyyədə döyüş hazırlığına malikdir ki, artıq düşmən qorxu içindədir".

- Əgər bu gün silaha sarılmışıqsa və bu silahdan Vətənin qorunması üçün istifadə ediriksə, bu bizim şərəf yolumuzdur, - deyə Emin söhbətə davam etdi. - Mübariz İbrahimov, Fərid Əhmədov, Cavanşir Rəhimov, Çingiz Qurbanov və digər şəhidlərimizin keçdiyi şərəfli həyat yolu bugünkü gənclərə, xüsusən də əsgərlərə Vətən sevgisinin aşılanması üçün bir məktəbdir. Prezident, Ali Baş Komandan İlham Əliyev xalqımızın iradəsini ifadə edərək dəfələrlə deyib ki, Azərbaycan bir qarış torpağını belə düşmənə verməyəcək. Azərbaycan əsgərləri bu fikirləri rəhbər tutaraq döyüş ruhuna  köklənib.

Ötən ilin aprel hadisələrini xatırlayan müsahibim qeyd etdi ki, Azərbaycan Ordusu təxribat törədən, dinc sakinləri hədəfə alan azğın düşmən üzərində şanlı qələbə qazandı. "Azərbaycan Ordusu düşmənə sarsıdıcı zərbələr endirdi, o cümlədən Lələtəpə və Talış yüksəkliklərini işğaldan azad etdi, Silahlı Qüvvələrimiz on minlərlə hektar əraziyə nəzarət etmək imkanı qazandı. Bütün bunlar qorxu bilməyən, torpaqlarımızın işğaldan azad olunması üçün alışıb-yanan əsgərlərimizin gücü hesabına mümkün oldu. Özümü ona görə qürurlu hesab edirəm ki, mən də həmin döyüşlərin iştirakçısı oldum. İnanıram ki, bu Qələbənin davamı gələcək və mənim də həmin Qələbədə töhfəm olacaq".

**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

AZƏRBAYCAN ORDUSU

Ordu və cəmiyyət

# Vətənpərvərlik işğalçılığa qalib gələcək!

*Əlsəfdər Hüseynov Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinin məzunudu. "Bakı", "Yeni fikir", "Azərbaycan Ordusu" qəzetlərində işləyib. Ehtiyatda olan polkovnik-leytenant, sənətşünaslıq üzrə fəlsəfə doktorudur. "Əməkdar Mədəniyyət işçisi" fəxri adına layiq görülüb.*



***- "Kino: yuxulardan reallığa" kitabınızda ritorik bir sualı xatırlayıram: müharibə nədir?***

- Bu sual düşüncələrdə toxunulmazlıqla qalacaq. Bu və bu qəbil suallar kinematoqrafiyanın məşğul olduğu problemlər deyil. Ancaq kinematoqrafiya belə aktual mövzuya biganə qalmır. Çünki xislətin göstəricisi olan müharibə insanın taleyindən - keçmişindən, bu günündən keçir, bu andan başlayan gələcəyindən də keçəcək. Müharibə mövzusunun ekrana gətirilməsi həm də insanın daxili dünyasını zaman və məkan ölçülərində yenidən araşdırmaq deməkdir.

***- Araşdırmaq kifayət deyil, nəticə maraqlıdı.***

- Təbii ki, araşdırma nəticəyə gətirir. Dövlətə, dövlətçiliyə xidmət edəsi tezislər sistemləşdirilir. Kinematoqrafiya bu baxımdan gərəklidir.

Müharibənin klassik tərifi öz yerində, müharibə haqqında eşitmişik də, müharibəni görmüşük də. Müharibə ölümdü, qaçqınlıqdı, köçkünlükdü, əsirlikdi, dağıntıdı. Xocalıda törədilən faciədə yüzlərlə insan öldürüldü, ölümdən can qurtaranlar əsir düşdü. Şəhər, sözün əsl mənasında, oda qalandı. Xatırladığınız sualın davamı olan "Müharibənin səbəbi nədir?" sualının konseptual cavabı yoxdu. Buna ictimai təfəkkürün digər sahələri - fəlsəfə, sosiologiya, futurologiya, siyasət, ... cavab verir. Tam əminliklə deyə bilərəm ki, yaradıcı insanlar istər lokal, istərsə də qlobal müharibəni pisləyir, müharibənin təbliğinin tərəfdarı deyil.

***- Yəni, yaradıcı insanlar bəşərilik tərəfdarıdı.***

- Bəli, əksəriyyəti. Sənət bütövlükdə bəşəriliyə xidmət etməli, müharibəsiz həyata çağırmalı, humanizmin təbliğinə çalışmalıdır. Bu, öz yerində. Bəs dövlət cəbrən müharibəyə cəlb olunubsa, yaradıcı insanın funksiyası nədən ibarət olmalıdır? 1993-cü ilin sentyabrında ziyalılara, yazıçılara, şairlərə müraciətlə bir məqalə yazmışdım: "Zamanın sözü, yoxsa sözün zamanı". Onları sükutda, yazmamaqda suçlamışdım. Sözün əsl mənasında suçlamışdım. Bəziləri "üzrü günahından baha" misallı münasibət bildirmişdi: hər şeyin zamana ehtiyacı var. Ölkənin taleyini işğal hədələyirsə, ziyalının, yazıçının, şairin, rejissorun vaxt gözləməsinə necə hiddətlənməyəsən? Xalq zamandan möhlət uman belə ziyalıya, belə yazıçıya, belə şairə, belə rejissora inanarmı? Müharibə mövzusunda müxtəlif janrlarda əsərlər yazılıb. Yetərlidirmi? - yox, yetərli deyil. Sovetlər dönəmində yazıçılar, şairlər bütün ictimai hadisələrə əsərlər həsr edirdi.

Heminqueyi xatırlayıram, xatırladıram. Müharibədən əsər yazmaq üçün müharibəyə getmək istəyirdi. Müraciətləri cavabsız qalırdı. Nəhayət, istəyinə nail oldu. Getdi, gördü, yazdı: "Əlvida, silah".

***- Müharibə mövzusunda əsər yazmaq, kino çəkmək üçün təfəkkür yetərli deyil.***

- Təbii ki, belədir. Kinematoqrafiya dövlətçiliyin cəfakeşlərindən olmalıdır. Unutmaq olmaz ki, çəkilən əsərlərdən bizim əleyhimizə də istifadə oluna bilər. Düşmən hazır məlumatı, faktı bizim əleyhimizə təbliğat vasitəsinə çevirə bilər. Nə yazılırsa, nə çəkilirsə, milli mənafelərə söykənməlidir, təfəkkürlə bir sırada peşəkarlıq amili də aparıcı olur. Fransız informasiya nəzəriyyəçisi Moll sübut edir ki, insanın aldığı informasiyaların təxminən 80 faizi vizualdır. Bizdə deyildiyi kimi, "Yüz dəfə eşitməkdənsə, bir dəfə görmək yaxşıdı". Bu baxımdan, kino daha çevikdi. Tamaşaçı eşitdiklərinə deyil, gördüklərinə daha çox inanır. Bu yaxınlarda Rusiya kanallarından birində bir verilişə baxdım. Böyük Vətən müharibəsinin ilk illərində faşistlərin işğal etdikləri ərazilərdə kinonun vizual təbliğat imkanlarından necə bəhrələnildiyindən bəhs edilirdi. İşğal edilən şəhərlərdə, kəndlərdə almanların əhaliyə humanist münasibətini, mədəni rəftar etdiyini göstərən kadrlar faşist ideologiyasını pərdələmə, əhalini gördüklərinə inandırma cəhdi idi. Təəssüflər olsun ki, o vaxtlar bu təbliğata inananlar, uyanlar da olurdu.

***- Deməli, sənədli filmin imkanları daha genişdir.***

- Müəyyən mənada, bəli. Müharibə vaxtı publisistikanın aparıcı janr olduğu danılmazdır. Deməli, müharibədə kinopublisistikanın da imkanlarından bəhrələnilməlidir. Rus rejissoru Mixail Rumun çəkdiyi "Adi faşizm" sənədli filmində heç bir yeni çəkiliş aparılmayıb. Kadrlar xronikadan götürülüb, filmin süjetinə, rejissorun yozumuna müvafiq montaj olunub. Müharibədən 25-30 il sonra. Belə əsərləri biz də yarada bilərik. Müdafiə Nazirliyi Sənədli və Tədris Filmləri Kinostudiyasında dəyərli kadrlar çoxdu. Yaradıldığı vaxtlarda hələ atəşkəs elan edilməmişdi və studiyanın əməkdaşları döyüşlərdən də yaddaqalan tarixi kadrlar çəkmişdi. Bu kadrlar neçə-neçə sənədli film üçün əvəzsiz material olardı. Bizim kinematoqrafiyamız bu dəyərli mənbədən lazımınca bəhrələnməlidir ki, sənədli filmlər vasitəsilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin, əslində, Ermənistanın elan etmədən apardığı müharibənin reallıqları dünya ictimaiyyətinə daha əhatəli çatdırılsın. Bu filmlər həm də xəlqi ruhun yaşarılığının təsdiqi olmaqla, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dediyi "Azərbaycan xalqı bu işğalla heç zaman barışmayacaq" fikrinin də ekran vasitəsilə daha geniş miqyasda ictimailəşdirilməsini təmin edərdi.

***- Heminqueyi xatırladınız. Neçə-neçə şairimiz, yazıçımız müharibəyə əsər yazmaq üçün yox, döyüşmək üçün getdi. Neçəsi şəhid oldu. Bu anlamda bizim yazıçılar, şairlər vətəndaş olaraq daha ucalıqda dayanır.***

- Bütün hallarda Heminqueylik vətəndaşlıqdan yaranır.

***- Vətəndaş və sənətkar. Müharibə vaxtı hansı hansını öz arxasınca aparmalıdır?***

- Müharibəyə ancaq yazıçı, şair, ssenarist, rejissor kimi yanaşmaq qəbuledilməzdir, o, müharibənin iştirakçısı olmalıdır. Ən azından sözüylə, əsəriylə. Unutmamalıdır ki, şair olmamışdan, yazıçı olmamışdan, ssenarist olmamışdan, rejissor olmamışdan əvvəl vətəndaşdı. Vətəndaş olaraq dövlətin, dövlətçiliyin maraqlarının mühafizəkarı olmalıdı, özü də qələbəyə köklənməlidi, əsərləri də qələbəyə kökləmə qüdrətində olmalıdı. Bəşərilik, humanizm buna mane olursa, ondan imtina edilməlidi.

***- Müharibənin öz qanunları var. Müharibədə hamı əsgərləşməlidi, çalışdığı sahənin əsgəri olmalıdı.***

- Müharibə həm fərdilikdə yaşanılır, həm də xalq olaraq ümumilikdə, birlikdə. Müharibə bu anlamda fərdin dünyaduyumuyla məhdudlaşa bilməz. Xalqın, dövlətin mənafeləri var, fərd həmin mənafelərin əsgəri olduğunu unutmamalıdı. Müharibəyə münasibətin pyedestalı vətəndaşlıqdı. Mirzə Cəlilin "Kamança" pyesində kamançaya, kamançada ifa edilən musiqiyə münasibətlə yüzbaşılıq (hərbi rütbə) paraleli var. Qəhrəman yüzbaşı kamançada ifa edilən musiqiyə görə (milli mentalitet) erməni ifaçını azad edir. İçindəki qisas duyğularını (dostlarının ölümü, dağıdılan kəndlər, ...) gerçəkləşdirmədiyinə, yüksək insani duyğulara təslim olduğuna görə kövrəlir, təəssüflənir. Yüzbaşı mənən yüksək insandır. Ancaq vətəndaş olaraq o yüksəklikdə qalmaq haqqını itirir, o yüksəklikdən yıxılır. Qəhrəman yüzbaşı obrazının müəyyən çaları "Fəryad"da da var, "Dolu"da da. Bu məqamlara baxmayaraq, bu filmlər Azərbaycan kinosunun uğurlarındandır.

***- Humanizmin boyu vətəndaşlığın boyundan yuxarı ola bilməz.***

- Vətəndaşlıq borcdur, əsər yazma (yaratma) borc deyil. Borca əməl edilməlidir, borc olmayanı yazmaya da (yaratmaya da) bilərsən. Ancaq vətəndaşlıq borcu səndən yazmağı (yaratmağı) tələb edirsə, bu, borc olur, necə deyərlər, sənətin vəzifə borcuna inteqrasiyası kimi təzahür edir. Yenə Heminqueyi xatırlayaq. Ona "Əlvida, silah"ı vətəndaşlıq borcu yazdırmışdı.

***- Yəni, müharibədə mentalitet deyil, vətəndaşlıq aparıcıdır.***

- Əlbəttə. Əgər fərd yaxşı vətəndaş deyilsə, təfəkkürü xalqla, millətlə, dövlətlə, dövlətçiliklə bağlı deyilsə, onun yazdığı əsərlər yaşaya bilməz. Bayaq Heminqueyi xatırladıq. Təbii ki, xalqın düşüncələrinin daşıyıcısı olan bu böyük yazıçının "Əlvida, silah"ı zaman-zaman yaşayacaq.

***- Sənədli filmlərin təsirini vurğuladınız. Kinopublisistika, onun təzahür formalarından olan sənədli filmlər həqiqətən də yüksək ictimai təsirə malikdir. 1993-cü ildə Müdafiə Nazirliyi Sənədli və Tədris Filmləri Kinostudiyasının hazırladığı "Müharibənin iki üzü" sənədli filmini xatırlayırsınızmı?***

- Rejissor Nizami Abbas çəkmişdi.

***- Bəli. O illərdə müharibə ovqatı ancaq Dağlıq Qarabağda, Ermənistanla sərhəd rayonlarda yaşanılırdı. Sənədli film bu ovqatın məmləkət boyu yaşanılması zərurətindən yaranmışdı.***

- Hər əsərin öz məfkurəsi, aşılamaq istədiyi ideyası, ideyaları olur. O sənədli film, həqiqətən də, kinopublisistika kimi, o illərin yaşanılmalı ovqatının carçısı kimi çox dəyərli idi. Ekranlara çıxarılandan sonra kifayət qədər təsir göstərmişdi. Xatırlatmışdı ki, nələr qələbəyə mane olur. Eyni ideya sənin "Müharibə nə vaxt qurtaracaq?" kitabında da var.

***- Sizin "Misri qılınc" kinopovestində də.***

- "Müharibənin iki üzü" də, "Müharibə nə vaxt qurtaracaq?" da, "Misri qılınc" da əhalini bütövlükdə qələbəyə, ordu ilə xalqın dönməz birliyinin təmin olunmasına kökləməyə xidmət edir. Hər üç əsər cəbrən müharibəyə cəlb edilmiş bir dövlətin vətəndaşlarının vətəndaşlıq borcunu unutmamağa çağırışdır.

***- "Ağ atlı oğlan" bədii filmini hələ vətəndaşlıq sənədi olmayan bir yeniyetmənin vətəndaşlığının ekran vasitəsilə təsdiqi kimi qəbul etmək olarmı?***

- Əslində, bu, filmin başlıca ideyasıdır: müharibədə hamı əsgərləşməlidi. Əsgər olmalıdı yox, əsgərləşməlidi. Murad belə əsgərləşir və əsgər olur. Hansı yaşda olursansa ol, müharibənin tələblərini dərk etməli, qələbə üçün yaşamalısan. Bunun üçün cəbhəyə getmək mütləq deyil. Tutduğun, işlədiyin vəzifədə əsgərləşməlisən. "Tütək səsi" bədii filmində arxa cəbhədə əsgərləşmənin mexanizmi dolğun verilib...

***- Yenə sizin kitabınızı xatırlayaq. Zənnimcə, indi reallıqdan kinoya dönüş gərəklidir.***

- Haqlısınız. Reallıq faktdır. Fakt təxəyyülü həmişə üstələyib. Elə faktlar var ki, mahiyyəti neçə-neçə əsərdən dəyərlidi. Xocalı faciəsindən çəkilmiş kadrlara ürək ağrılarıyla baxılır. Bu faciədən yazılmış əsərlər o biçimdə oxunurmu, baxılırmı?

***- Aprel döyüşlərindən də sənədli filmlər çəkilib.***

- İstər sənət adamı, kinoşünas kimi, istərsə də vətəndaş kimi bunu təqdir edirəm. Bu, yaşadılmalını yaşatma cəhdidi. Bir məqamı xatırlatmaq istərdim. Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanov haqqında çəkilmiş "Çin olmuş yuxu" sənədli filmi ideya kimi, vətənpərvərlik təşəbbüsü kimi dəyərlidi. Bir məqam unudulmamalıdı: qəhrəmanı qəhrəman kimi təqdim etmək. Bu sənədli filmdə böyük vətənpərvərlik ruhu var və bu ruhu gələcəkdə çəkiləcək sənədli filmlərdə də görmək istərdik.

Qərb kinosunun bütün dünyaya sırımaq istədiyi Rembolardan, Rokkilərdən, Şvartsneqrlərdən, "Komandos" filmindəki "supermendən" heç də geri qalmayan, bəlkə də onlardan üstün olan Mübariz İbrahimov kimi real qəhrəmanımız (qəhrəmanlarımız) var və bizim kinoçular Mübarizlərin obrazını həm bədii, həm də sənədli kino düşüncəsinin mövzularına çevirib, bu uydurma, psevdoqəhrəmanlıq mifini dağıtmalı, Azərbaycan ruhunun simvolu olan qəhrəmanlarımızın (real qəhrəmanlarımızın!) nəsillərə örnək ola biləcək obrazlarını yaratmalıdır.

***- Ali Baş Komandanımızın aprel döyüşləri haqqında dedikləri öz əksini kinoda da mütləq tapmalıdı.***

- Əlbəttə. Bu döyüşlər Azərbaycan Ordusunun qüdrətini, gücünü, döyüş əzmini, əsgərlərin mənəvi-psixoloji hazırlığının, ordu ilə xalqın birliyini təsdiqlədi. Bu döyüşlərdə arxa cəbhə də qələbəyə köklənmişdi. Bu birlik indi də var. Xalq Prezidentinə inanır, ordusuna güvənir.

Döyüşlər istər düşmənə, istərsə də onun mövqeyinə gizlin-açıq dəstək olanlara xatırlatdı ki, Azərbaycan Ordusu torpaqlarını işğaldan azad etməyə qadirdi. Mübariz İbrahimovun, Murad Mirzəyevin, Samid İmanovun, eləcə də digər qəhrəmanların şücaəti bu günün yeniyetmələrinə, gənclərinə örnəkdi, örnək olacaq. Vətənpərvərlik işğalçılığa qalib gələcək. Kino, deməli, kino-publisistika da bu ideyanın carçısı olmalıdı...

**Söhbətləşdi:**
**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**

# Müdafiə Nazirliyində Beynəlxalq Humanitar Hüquq mövzusunda seminar keçirilib

*Müdafiə Nazirliyi ilə Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) Azərbaycandakı nümayəndəliyi arasında 2017-ci il üçün əməkdaşlıq fəaliyyəti çərçivəsində mayın 23-də Beynəlxalq Humanitar Hüquq mövzusunda seminar keçirilib.*



Seminarın məqsədi iştirakçıları müharibə gedən ölkələrdə müvafiq qanunvericilik və normalarla tanış etmək, eyni zamanda hərbi əməliyyatlar zamanı davranış, mülki əhalinin təhlükəsizliyi, yaralı və xəstələrin beynəlxalq hüquq normaları çərçivəsində qorunması, hərbi münaqişədən zərər çəkmiş dinc sakinlərə dəstək vermək və onların qarşılaşdığı mövcud problemlərin həlli barədə fikir mübadiləsinin aparılmasından ibarət olub.

Tədbirdə BQXK ilə Azərbaycan hökuməti, eləcə də Müdafiə Nazirliyi arasındakı qarşılıqlı əməkdaşlıq əlaqələrindən danışılıb, qurumun cəbhəboyu zonada həyata keçirdiyi layihələr, onların icra mexanizmləri və digər məsələlərlə bağlı fikir mübadiləsi aparılıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Bir məktəbin idman ənənəsi

Naxçıvan Qarnizonu tam orta məktəbində şagirdlərin fiziki-mənəvi sağlamlığı, təhsilə, informasiya-kommunikasiya texnologiyalarına yiyələnmələri, asudə vaxtlarının səmərəli təşkili istiqamətində məqsədyönlü tədbirlər görülür. Hər cür lazımi tədris avadanlıqları ilə tam təmin olunmuş bu tam orta məktəb müasir şəraitdə fəaliyyət göstərir.

Həmsöhbətim təcrübəli müəllim Cəlalət Həmzəyeva bildirdi ki, gənc nəslə yaradılan hərtərəfli şərait nəticəsində məktəblilər dərslərdə və asudə vaxtlarında keçirilən tədbirlərdə fəallıq nümayiş etdirirlər. "Şagirdlər Naxçıvan Muxtar Respublikasında müxtəlif səviyyəli turnir, yarış və müsabiqələrdə fəal iştirak edərək birincilik uğrunda mübarizə aparırlar. Onlardan Dadaş Dadaşzadə, Rasim Məmmədli, Adil Adilzadə, Murad Həmidli, Xədicə Əsgərova, Rəqsanə Hüseynova, Fidan Əliyeva, Aytac Nuriyeva, Güllü Həsənova, Rəqsanə Mirzəyeva, Aytac Seyidova, Aysu Cəfərli və belə yarışmalarda uğurla iştirak edirlər."

Fiziki hazırlıq müəllimi Habil Həsənov isə məktəbin idman nailiyyətlərindən danışdı. Bildirdi ki, şagirdlərimiz həm fiziki hazırlıq dərslərində, həm də idman yarışlarında fəal iştirak edirlər. "Son dövrlərdə oğlanlarla yanaşı, qızların da idmana marağı artıb. Qızlardan ibarət voleybol və həndbol komandalarımızın yarışlarda qələbə qazanmaları məktəbimizin növbəti idman uğurlarındandır. Voleybol komandamızın üzvlərindən Ləman Talıbova, Əminə Qasımova, Yasmin Əliyeva, Sevinc Məmmədli, Vüsalə Baxışzadə, Mələtəm Səhratova, İlkanə Babayeva, həndbolçu qızlarımızdan Nuranə Hüseynova, Ceyran Məmmədova, Tamara Eyyubova, Nərmin Həsənova, Nərmin Babazadə, Səma Süleymanova, Səbinə və Yeganə Ağayeva bacıları idmana böyük maraq göstərirlər."

**Leytenant, Nəriman NƏCƏFOV**

# "Belə yarışlar bizi daha da mübariz olmağa ruhlandırır"

*C.Naxçıvanski adına Hərbi Liseydə tez-tez Azərbaycanın Milli Qəhrəmanlarının xatirəsinə həsr olunmuş turnir və yarışlar keçirilir. Təhsil ocağının kursantları bu tədbirlərdə fəal iştirak edirlər.*



Bu günlərdə Hərbi Liseydə Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun xatirəsinə həsr olunmuş bölüklərarası hərbiləşdirilmiş idman yarışı keçirildi. C.Naxçıvanski adına Hərbi Liseyin idman rəisi Fərhad Əliyev çıxış edərək əfsanəvi döyüşçü haqqında mərasim iştirakçılarına məlumat verdi:

- Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun qəhrəmanlığı tariximizə böyük hərflərlə yazılıb. Mübariz Vətən uğrunda, torpaq uğrunda şəhid oldu, əbədi olaraq adını xalqımızın yaddaşına həkk etdi. Xalq cəsur oğlunu heç vaxt unutmur, yaddan çıxarmır, onun adı həmişə hörmətlə anılır. Təkcə bu təhsil ocağında deyil, Silahlı Qüvvələrin hərbi hissə və birləşmələrində də tez-tez qəhrəmanın şərəfinə tədbirlər təşkil olunur. Belə yarışların, tədbirlərin keçirilməsində əsas məqsəd gənclərdə vətənpərvərlik, mübarizlik ruhunu daha da yüksəltməkdir.

Kursantlar böyük həvəslə yarışa başladılar. Mübarizəyə 9 komanda qatılıb. Yarış komanda və şəxsi xarakterlidir. Ümumi heyət 34 nəfərdən ibarətdir. Kursantlar bütün mərhələləri uğurla keçməyə çalışırdılar. Hakimlər isə iştirakçıların bütün hərəkətlərini diqqətlə izləyərək onları müvafiq balla qiymətləndirirdilər.

Yarışlar 5 mərhələdə keçirilirdi. Birinci mərhələdə 100 metr məsafəyə qaçış, ikinci mərhələdə qumbaraatma, üçüncü mərhələdə güllə atıcılığı, 4-cü mərhələdə turnikdə dartınma və nəhayət, 5-ci mərhələdə kəndirdartma yarışı.

Mərhələlərdən uğurla keçən kursantlarla söhbət etdim. Kursant Cavidan Rəhimli dedi ki, Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun xatirəsinə həsr olunmuş idman yarışında iştirak etməkdən qürur duyuruq. "Birincilikdə təmsil etdiyim komandanı irəli çıxarmağa çalışdım. İnanıram ki, bizim bölük birinci pilləyə çıxaraq qalib adını qazanacaq. Belə maraqlı yarışlar bizi daha da mübariz olmağa ruhlandırır."

Daha sonra kursantlardan Xəzər Nəsibli, Kamil Şükürov, Elxan Salahov, Amil Malikli, Mərdan Verdiyev, Sərxan Abbasov və başqaları ilə söhbət edib yarışla bağlı onların da ürək sözlərini qeydə aldım.

...Kursantlar komandalarını irəli çıxarmaq üçün əzmlə mübarizə aparırdılar. Hamının məqsədi yalnız qələbə qazanmaq idi. Hiss olunurdu ki, bu yarışa ciddi hazırlaşıblar.

Nəhayət, yarışa yekun vuruldu. Hakimlər tərəfindən ballar hesablanandan sonra nəticələr elan olundu. Turnirin qalibi adını 9-cu bölüyün kursantları qazandılar. Onlar 56 xal toplayaraq rəqiblərini xeyli arxada qoydular. 2-ci yerə 8-ci bölük, 3-cü yerə isə 7-ci bölüyün şəxsi heyəti yüksəldi.

**Vahid MƏHƏRRƏMOV, C.Naxçıvanski adına Hərbi Lisey**

# Xəbərlər: hadisələr, faktlar

## NATO-nun üzvləri İŞİD-ə qarşı koalisiyaya qoşulmaq məsələsini müzakirə edəcəklər



NATO-ya üzv dövlətlər mayın 25-də Brüsseldə keçiriləcək sammitdə İŞİD terror qruplaşmasına qarşı beynəlxalq koalisiyaya qoşulmaq məsələsini müzakirə edəcəklər.

Bu barədə NATO-nun baş katibi Yens Stoltenberq Almaniyanın "Bild" qəzetinə müsahibəsində bildirib.

"Biz koalisiyaya siyasi və təşkilati baxımdan da kömək edə bilərik", - deyə baş katib qeyd edib.

Yens Stoltenberq deyib ki, NATO Suriyada və İraqdakı vəziyyətə qarışmaq niyyətində deyil. Bu ölkələrdəki vəziyyətə hərbi müdaxilə, ümumiyyətlə, gündəlikdə deyil. NATO nə Suriyada, nə də İraqda hərbi əməliyyatlarda iştirak etməyəcək.

## Şimali Koreya daha bir raket buraxıb



Şimali Koreyada növbəti modifikasiyası bəlli olmayan raket buraxılışı həyata keçirilib.

Penxap agentliyinin yaydığı məlumata görə, Cənubi Koreyanın Müdafiə Nazirliyi hazırda təcili qaydada müvafiq informasiya toplamaqla məşğuldur. İlkin məlumata əsasən, KXDR uçuş məsafəsi 500 kilometr olan bir raket buraxıb.

Yaponiyanın Baş naziri Sinzo Abenin dəftərxanası yanında informasiyanın toplanması və təhlili üzrə böhran qərargahı yaradılıb.

Şimali Koreya sonuncu raket buraxılışını mayın 14-də həyata keçirmişdi. O vaxt buraxılan orta mənzilli "Xvanson-12" ballistik raketi 787 kilometr uçaraq Yapon dənizinə düşmüşdü.

## Əfqanıstan: "Taliban" silahlıları 20 polis işçisini öldürüb



"Taliban" hərəkatının silahlıları Əfqanıstanın cənubunda nəzarət-buraxılış məntəqələrinə silsilə hücumlar təşkil edərək 20 polis işçisini qətlə yetiriblər.

Hücumlar nəticəsində hüquq-mühafizə orqanlarının azı 15 əməkdaşı da yaralanıb.

"Bu səhər "Taliban" döyüşçülərinin ağır və yüngül silahlarla silahlanmış bir qrupu Zabul vilayətində bir neçə polis nəzarət-buraxılış məntəqəsinə koordinasiya olunmuş hücum həyata keçirib, 20 polis işçisi həlak olub", - deyə vilayətin qubernatoru Bismilla Əfqanmal bildirib.

Son vaxtlar Əfqanıstanda vəziyyət pisləşməkdə davam edir. Bir sıra kənd rayonlarında xeyli əraziləri ələ keçirən taliblər böyük şəhərlər istiqamətində hücumları genişləndirirlər. Ölkə ərazisində, həmçinin İŞİD terror qruplaşmasının da təsir dairəsi artır.

## İraqda terror aktları nəticəsində ölənlərin sayı 35 nəfərə çatıb



Mayın 20-nə keçən gecə İraqda törədilən terror aktları nəticəsində ölənlərin sayı 35 nəfərə çatıb.

Terrorçu kamikadzenin Bağdada təhlükəsizlik qüvvələrinin nəzarət-buraxılış məntəqəsinə hücumu 24 nəfərin ölümü və 20 nəfərin yaralanması ilə nəticələnib.

Digər partlayış İraqın cənubundakı Bəsrə şəhərində törədilib. Avtomobildə quraşdırılmış partlayıcı qurğunun işə salınması 11 nəfərin həyatına son qoyub, 30 nəfər yaralanıb.

Hər iki terror aktının məsuliyyətini İŞİD qruplaşması üzərinə götürüb.

**AZƏRTAC-ın materialları əsasında**

AZƏRBAYCAN ORDUSU

BAKU 2017
4th Islamic Solidarity Games
12 – 22 May 2017

# Azərbaycan birinci oldu!

## IV İslam Həmrəyliyi Oyunları tarixə çevrildi

*Azərbaycan Milli Olimpiya Komitəsi (MOK) "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunlarının keçirildiyi günlərdə atletlərin, jurnalistlərin və idman ictimaiyyətinin doğma ocağına çevrilib.Azərbaycan Milli Olimpiya Komitəsinin inzibati binasında "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunları ilə bağlı ənənəvi "Zəfər günləri" çərçivəsində növbəti tədbir keçirilib. Mərasimdə MOK-un, Gənclər və İdman Nazirliyinin, idman federasiyalarının rəsmiləri, Olimpiya çempionları, medal qazanan atletlərimizin ailə üzvləri və ictimaiyyətin nümayəndələri iştirak ediblər.*

AZƏRTAC xəbər verir ki, MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə bildirib ki, yığmamız ümumi komanda hesabında birinci yerdədir. Ç.Hüseynzadə atletlərimizi qələbə münasibətilə təbrik edərək Azərbaycan xalqının ümidlərini doğrultduqlarına, idmansevərlərə qələbə sevinci yaşatdıqlarına görə təşəkkürünü bildirib.

Qalib idmançılara MOK-un xüsusi hədiyyələri təqdim olunduqdan sonra onlar zəfər lövhəsinə imza atıblar. Mərasim incəsənət ustalarının ifasında konsert proqramı ilə davam edib.

IV İslam Həmrəyliyi Oyunlarında sərbəst güləş yarışları başa çatıb. 61 kq çəki dərəcəsində ölkəmizi Hacı Əliyev təmsil edib. Dünya və Avropa çempionumuzun "qızıl" yolunda son rəqibi qırğızıstanlı Alibek Osmonov olub. Bu rəqibinə də heç bir şans verməyən pəhləvanımız 10:0 hesablı erkən qələbə ilə hamıdan güclü olduğunu sübut edib.

70 kq çəki dərəcəsində Murtazali Müslimov xalça üzərinə çıxıb. Müslimov finalda son dəfə xalça üzərinə iranlı Mustafa Hüsseynkaniyə qarşı görüşdə çıxıb. Rəqibi ilə bacarmayan Murtuzəli Oyunları "gümüş"lə başa vurub.

86 kq çəkidə son illərin dəyişməz təmsilçisi Şərif Şərifov yarışıb. İdmançımız İslamiada çərçivəsindəki ilk görüşünə səkkizdəbir final mərhələsində çıxıb. İkiqat Olimpiya mükafatçımız bürünc medal uğrunda Bahodur Kadırovla (Tacikistan) qarşılaşıb. Açıq-aşkar rəqibindən üstün olan Şərif turniri üçüncü sırada başa vurub.

Ən ağır çəkidə güləşən Cəmaləddin Məhəmmədov həlledici görüşünü Daulet Şabanbaya (Qazaxıstan) qarşı keçirib. İdmançımız gərgin keçən döyüşdən qalib ayrılmağı və "qızıl"ı boynundan asmağı bacarıb.

Azərbaycan IV İslam Həmrəyliyi Oyunlarında daha bir medal qazanıb. Zorxana növünün komanda yarışlarında millimiz ikinci olub. Tural Əliyev, Məmmədəli Salamov, Xəyyam Orucov, Rüfət Gülalıyev və Orxan Xanlarovdan ibarət komandamız təkcə İran yığmasından geri qalıb.

"Baku Crystal Hall"da keçirilən yarışlarda Azərbaycan,



Əfqanıstan, Banqladeş, İran, İraq, Qırğızıstan, Pakistan, Tacikistan, Toqo və Uqandanın təmsilçiləri mübarizə aparırlar. Gün ərzində səngi, milbazi, çərxi-tiz, kəbbadə, milsəngin və çərxi-çəməni növləri üzrə fərdi hərəkətlərdə qaliblər məlum olacaq.

"Zorxana" sözünün mənası "zor" - güc, "xana" - ev, yəni "güc evi" deməkdir. Yarışlar mürşidin ifa etdiyi ritmik musiqinin sədaları altında keçirilir. Mürşid zərb aləti ilə zorxana ritmlərini ifa edən şəxsə deyilir. O, sərdəm deyilən yerdə oturur. Qapı "sərdəm"ə gedən dar və alçaq keçidə açılır. Sərdəm 1 və ya 1,5 metr hündürlüyündə olan taxtdır.

Zorxana alətləri qədim silahların formasında hazırlanıb. Səng aləti qalxana, mil əmud, toppuz və qılınca, kəbbadə kamana bənzəyir. Şeno aləti isə üzərində jim hərəkətlərinə oxşar məşqləri etmək üçündür.

Fərdi yarışlarda Azərbaycan idmançısı Rüfət Gülalıyev IV İslam Həmrəyliyi Oyunlarının zorxana yarışlarında kişilər arasında səngi növü üzrə mübarizədə qızıl medal qazanıb.

Heydər Əliyev adına İdman Arenasında keçirilən güləş yarışlarının sonuncu günündə qadın idmançılar mübarizə aparıblar. Güləşçilərimiz 4 qızıl, 3 gümüş və 1 bürünc medalla başa vurublar.

Mariya Stadnik mayın 21-də IV İslam Həmrəyliyi Oyunlarında qızıl medal qazanaraq uğurları sırasına İslamiadanın qalibi adını da əlavə edib. 48 kiloqram çəki dərəcəsində yarışan Mariya Stadnik finalda türkiyəli Evin Demirhan üzərində təmiz qələbə qazanıb.

Azərbaycanın qadın güləşçisi Leyla Qurbanova IV İslam Həmrəyliyi Oyunlarında daha bir qızıl medal qazanıb. Leyla Qurbanova (53 kq) ilk görüşdə Türkiyə təmsilçisi Burcu Kevicini tam üstünlüklə məğlub edib. İkinci oyunda qazaxıstanlı Aygül Nuralimi 6:0 hesabı ilə məğlub edən Azərbaycan təmsilçisi qadın güləşçilərimizin İslamiadada ilk qızıl medalına sahib olub.

Avropa çempionatının bürünc medalını qazanan Tatyana Omelçenko IV İslam Həmrəyliyi Oyunlarında aktivinə qızıl medal yazdırıb. 60 kiloqram çəki dərəcəsində final xarakterli qarşılaşmada Türkiyə güləşçisi Qamze Nur Adakanı da vaxtından əvvəl təmiz qələbə ilə məğlub edən pəhləvanımız İslamiadanın çempionu olub.

69 kiloqram çəki dərəcəsində mübarizə aparan Elis Manolova həlledici qarşılaşmada Qazaxıstan güləşçisi Jamila Bakbergenova ilə üz-üzə gəlib. Görüşdə rəqibinin kürəyini yerə vuran Elis Manolova İslamiadanın qızıl medalına sahib olub.

Azərbaycan millisi IV İslam Həmrəyliyi Oyunlarının suyatullanma yarışlarında daha bir qızıl medal qazanıb. Qadınlar arasında 3 metr tramplindən suyatullanma yarışında uğurla çıxış edən Azərbaycan idmançısı Olqa Bıkovskaya bütün rəqiblərini qabaqlayaraq "Bakı-2017"-nin çempionu olub.

IV İslam Həmrəyliyi Oyunlarında kişilər və qadınlar arasında basketbol 3x3 yarışı Azərbaycan millisinin qələbəsi ilə başa çatıb. Yarışın final mərhələsində kişilərdən ibarət Azərbaycan yığma komandası Qətər millisinə 13:9 hesabı ilə qalib gələrək çempion adını qazanıb.

Qadınlar arasında basketbol 3x3 yarışının final görüşündə milli komandamız Mali yığmasını 13:7 hesabı ilə məğlub edərək qızıl medala sahib olub.

Futbol üzrə İslamiada yarışlarına da yekun vurulub. Final oyununda Oman millisini 2:1 hesabı ilə məğlub edən Azərbaycan millisi IV İslam Həmrəyliyi Oyunlarının çempionu adını qazanıb. Yarışın bürünc medallarına Əlcəzair millisi layiq görülüb.

Ümumi medalların sayına görə Azərbaycan millisi 75 qızıl, 48 gümüş və 35 bürünc (cəmi 158) medalla komanda hesabında birinci yeri tutub. Türkiyə millisi 70 qızıl, 65 gümüş, 55 bürünc (cəmi 190) medalla ikinci yerdə qərarlaşmışıb. İran millisi isə 35 qızıl, 26 gümüş və 33 bürünc (cəmi 94) medalla üçüncü olub.

IV İslam Həmrəyliyi Oyunları başa çatıb. Apasport.az saytının məlumatına görə, paytaxtımızda təşkil olunan yarışa tennisçilərin mübarizəsi ilə yekun vurulub. Bununla, İslamiadada 268 dəst medal öz sahibini tapıb. 11 gün ərzində 269 qızıl, 267 gümüş, 350 bürünc, ümumilikdə 886 mükafat 40 ölkə təmsilçisi arasında bölüşdürülüb. Yarışa qatılan 14 ölkənin komandası isə Bakıdan əliboş qayıdır.

Ümumi medalların sayına görə Azərbaycan millisi 75 qızıl, 50 gümüş və 37 bürünc (cəmi 162) medalla komanda hesabında birinci yeri tutub.

Səudiyyə Ərəbistanı 2005-ci, İndoneziya 2013-cü ildə təşkil etdiyi Oyunların qalibi olmuşdu. Lakin qızıl medal sayında həmin ölkələri geridə qoyan Azərbaycan mütləq rekord müəyyənləşdirib. 75 çempionluq yaşayan millimiz İslamiada tarixinin görünməmiş nəticəsinə imza atıb.

Türkiyə millisinin qazandığı 195 medal da tarixə rekord kimi düşüb. Türkiyə millisi 71 qızıl, 67 gümüş, 57 bürünc (cəmi 195) medalla ikinci yerdə qərarlaşıb. İran millisi isə 39 qızıl, 26 gümüş və 33 bürünc (cəmi 98) medalla üçüncü olub.

**"Azərbaycan Ordusu"**

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik
Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
leytenant
Mahmud MÖHBALIYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur.
"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 218
Nüsxə 4650